UOT: 338.46
JEL: L-97

FƏTƏLİYEVA G. A.
AMEA İqtisadiyyat İnstitutu, elmi işçi
E-mail: feteliyevagulya@gmail.com

DÜNYADA VƏ AZƏRBAYCANDA İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI SAHƏLƏRİNİN MÜASİR DURUMU

Xülasə

Tədqiqatın məqsədi – dünyada və Azərbaycanda İKT sektorunun sahələrinin mövcud vəziyyətinin araşdırılması, bu sahədə əsas göstəricilərin təhlil edilərək qiymətləndirməsi.

Tədqiqatın metodu - müqayisəli və statistik təhlil, sistemli yanaşma.

Tədqiqatın nəticələri – Aparılmış təhlil əsasında Azərbaycanda İKT sahəsində müasir vəziyyət tədqiq olunmuş, mövcud problemlər araşdırılmış, onların həll istiqamətləri göstərilmişdir.

Açar sözlər - *İKT sektoru, iqtisadi inkişaf, rəqabətqabiliyyətlilik, idxal, ixrac, məhsul və xidmətlər, istehsal.*

GİRİŞ

Milli iqtisadiyyatın inkişafı, onun qlobal dünya iqtisadi sistemindəki mövqeyi ictimai istehsalın strukturundan birbaşa asılıdır. İKT sahəsində malların istehsalı və xidmətlərin göstərilməsi - iqtisadiyyatın ən innovativ və dinamik sahələrindən biri kimi iqtisadi inkişafın aparıcı qüvvəsi hesab olunur. Bu sektorda məhsulların istehsalı və xidmətlərin göstərilməsi və həmçinin onların idxal və ixracı beynəlxalq səviyyədə ölkələr arasında əmək məhsuldarlığını və rəqabət səviyyəsini artırır, iqtisadiyyatların investisiya baxımından cəlbediciliyini yüksəldir.

İKT sektoru 3 əsas sahədən ibarətdir: İKT-nin istehsal, ticarət və xidmət sahəsi (Diaqram 1). İKT sektorunun sahələr üzrə təsnifatı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) təyinatına uyğun qəbul edilmiş, bütün iqtisadi fəaliyyətlər üzrə Beynəlxalq Standart Sənaye Təsnifatına uyğun müəyyənləşdirilmişdir. Təsnifat sektorun istehsal, ticarət və xidmət sektorlarına görə qruplaşdırılması əsasında İKT mal və xidmətlərinin ölçülməsi üçün beynəlxalq müqayisəli çərçivə təqdim edir [8].

Diaqram №1

İKT sektorunun sahələri



Mənbə: [7] əsasında müəllif tərəfindən tərtib edilib.

İKT-nin istehsal sahəsinə: kompüterlərin, elektron və optik avadanlıqların istehsalı, kompüterlərin və periferiya qurğularının istehsalı, elektron məişət avadanlıqlarının istehsalı, elektron detalların və platalarının istehsalı, maqnit və optik daşıyıcıların istehsalı, kommunikasiya avdanlıqlarının istehsalı, radio, televiziya, rabitə cihazlarının istehsalı və s. aiddir.

İKT-nin ticarət sahəsinə informasiya və kommunikasiya avadanlıqlarının topdan satışı, kompüterlərin, kompüter periferiya avadanlıqlarının və proqram təminatı məhsullarının topdan satışı, elektron və telekommunikasiya avadanlıqlarının və ehtiyat hissələrinin topdan satışı və s. daxildir.

İKT-nin xidmət sahəsinə telekommunikasiya xidmətləri, simli və simsiz telekommunikasiya xidmətləri, peyk telekommunikasiya xidmətləri, kompüter proqramlaşdırması, konsaltinq və informasiya sahəsində xidmətlər, verilənlərin emalı, hostinq və veb-portalla əlaqəli xidmətlər, kompüterlərin təmiri, fərdi və ev təsərrüfatında

istehlakı, kompüterlərin və periferiya avadanlıqlarının təmiri, kompüterlərin və kommunikasiya avadanlıqlarının təmiri və s. aid edilir.


Dünya ölkələrində İKT sahələrinin mövcud vəziyyəti və əsas inkişaf xüsusiyyətləri

İKT sektorunun inkişafında bu sektor üzrə xidmətlər bazarının böyük rolu vardır və sektorda yaradılan əlavə dəyərin 80%-i xidmətlərin payına düşür. İstehsal sahəsi isə xidmət sferası ilə müqayisədə nisbətən kiçik paya malikdir.

İKT məhsullarının istehsalı üzrə dünyanın öncül ölkələri sırasına Cənubi Koreya, Yaponiya, İsveç, Finlandiya, ABŞ, İrlandiya kimi dövlətlər daxildir. Qeyd etmək lazımdır ki, 2015-ci ildə müqayisə edilən ölkələr içərisində Cənubi Koreyada yaradılan əlavə dəyərin əksər hissəsini, yəni 69,4%-ni İKT üzrə istehsal sahəsi təşkil etmişdir (Diaqram 2).

Diaqram №2

2015-ci ildə dünya ölkələrində İKT sektorunda yaradılmış əlavə dəyərin tərkibində istehsal sahəsinin payı, %-lə




Mənbə: [7] əsasında müəllif tərəfindən tərtib edilib.

2016-cı ildə dünyada İKT xidmətlərinin ixracı 5% artmış, 470 milyard ABŞ dollarından 493 milyard ABŞ dollarına qədər yüksəlmişdir [3].

Diaqram №3

Dünyada ümumi xidmətlər ixracında İKT xidmətlərinin ixracının payı, %-lə




Mənbə: [6] əsasında müəllif tərəfindən tərtib edilib.

Dünya üzrə İKT xidmətlərinin ixracının bütün xidmətlərin ixracında payı artan dinamikaya malik olmuş və bu göstərici 2008-ci ildə 8,3%-dən artaraq 2016-ci ildə 10,1% təşkil etmişdir (Diaqram 3).

Diaqram №4

2016-cı ildə ümumi xidmətlər ixracında İKT xidmətlərinin ixracının ölkələr üzrə payı, %-lə




Mənbə: [6] əsasında müəllif tərəfindən tərtib edilib.

2016-cı ildə ümumi xidmətlər ixracında İKT xidmətlərinin ixracının pay çoxluğuna görə ilk onluğa daxil olan ölkələrin ardıcıllığı belədir: İrlandiya – 71233,9 mln.ABŞ dolları, Hindistan - 55317,9 mln.ABŞ dolları, Niderland - 37555,9 mln.ABŞ dolları, ABŞ - 37262,0 mln.ABŞ dolları, Almaniya - 32722,3 mln.ABŞ dolları, Birləşmiş Krallıq - 25424,6 mln.ABŞ dolları, Çin - 23718,1 mln.ABŞ dolları, Fransa - 16897,0 mln.ABŞ dolları, İsveç - 14041,4 mln.ABŞ dolları, İsveçrə - 13202,4 mln.ABŞ dolları.

Diaqram №5

Dünyada ümumi mal ixrac və idxalında İKT mallarının payı, %-lə



Mənbə: [6] əsasında müəllif tərəfindən tərtib edilib.

2015-ci ildə dünyada ümumi mal ixracı üzrə İKT mallarının ixracının payı 11,1% təşkil etmişdir ki, bu da bir il əvvəlki illə müqayisədə 0,5% çoxdur. Ayrı-ayrı ölkələr üzrə isə bu göstərici qeyd edilən ildə Honq Konqda – 48,6%, Filippində – 42,9%, Sinqapurda - 33,5%, Çində - 26,6%, Cənubi Koreyada - 21,7%, İsraildə - 14,3%, Niderlandda - 10,9%, ABŞ-da 9,4%, Yaponiyada - 8,5%, İsveçdə - 6,9%, Almaniyada - 4,7%, Fransada - 4%, Rusiyada - 0,8% olmuşdur [6]. 2015-ci ildə dünya bazarında İKT məhsullarının ümumi ixracı 1,9 trilyon ABŞ dollarından yüksək olmuşdur [5].

İƏİT-in 2016-cı il üzrə məlumatlarına əsasən, dünyada İKT mallarının ixracatçısı olan ilk on ölkənin sıralanması belədir: Çin – 469,3 mlrd.ABŞ dolları, ABŞ – 140,3 mlrd. ABŞ dolları, Taypey (Çin) – 120,6 mlrd.ABŞ dolları, Sinqapur – 111,0 mlrd.ABŞ dolları, Cənubi

Koreya – 110,3 mlrd.ABŞ dolları, Almaniya – 62,4 mlrd.ABŞ dolları, Meksika – 60,4 mlrd.ABŞ dolları, Malayziya – 57,8 mlrd. ABŞ dolları, Yaponiya – 53,6 mlrd.ABŞ dolları, Niderland – 51,8 mlrd.ABŞ dolları [7].


2015-ci ildə dünya üzrə ümumi mal idxalı strukturunda İKT mallarının idxalının payı 12%-dən yüksək olmuşdur. Həmin il bu göstərici üzrə ən yüksək paya malik dünya dövlətlərinə Honq Konq (47,7%), Sinqapur (28%), Filippin (27,5%), Malayziya (24%), Çin (23,5%), Vyetnam (21,1%), Meksika (16,5%), Cənubi Koreya (14,7%), ABŞ (13,8%), Niderland (13,5%), Yaponiya (12,8%), İsrail (11,5%), Almaniya (8,4%) və s. aid olmuşdur. Qeyd edilən ildə qlobal İKT mallarının idxalının dəyəri 2,1 trilyon ABŞ dollarından çox olmuşdur ki, bunun da 746,1 mlrd.dolları elektron avadanlıqların, 532,4 mlrd. dolları telekommunikasiya avadanlıqlarının, 467,2 mlrd.dolları kompüter və periferiya avadanlıqlarının, 269,7 mlrd.dolları isə digər İKT avadanlıqlarının payına düşmüşdür [5].

Azərbaycanda İKT-nin sahələrinin müasir vəziyyəti

Ölkəmizdə qeyri-neft sektorunun daha sürətli inkişafını, iqtisadiyyatın səmərəliliyini və rəqabətqabiliyyətini artırmaq və onun innovasiya əsaslı irəliləyişini təmin etmək zəruri bir məsələ kimi qarşıda durur. Bu sadalananlara nail olunmasında İKT sektoru xüsusi yer tutur.

Diaqram №6

Azərbaycanda İKT sektorunda məhsul (xidmətlər) buraxılışı, milyon manat



Mənbə: [4] əsasında müəllif tərəfindən tərtib edilib.

Qeyd etmək lazımdır ki, İKT sektorunun tərkibində rabitə sektoru böyük paya malikdir. Belə ki, qeyd edilən dövrdə sektorda məhsul və xidmətlər buraxılışının 86-94%-i rabitə sektorunun payına düşmüşdür (Diaqram 6)

Cədvəl

İKT sektorunda əhaliyə göstərilmiş xidmətlərin dəyəri, milyon manat


	2008	2009	2010	2011	2012	2013	2014	2015	2016
Cəmi	694,8 8	744,4	798,8	804,3	978	1 0380	1 045,4	993,3	942,8
poçt	7,5	10,0	11,9	12, 2	15,9	17,3	19,1	20,9	24,1
radiorabitə, teleradio yayımı və peyk tabitəsi	4	2,8	4,3	5,8	7,8	12,8	13,3	14,4	13,3
mobil telefon rabitəsi	601,4	646,4	676,1	670,3	831,7	876,7	882, 7	841, 0	794, 2
internet	5,0	7,1	10,3	23,1	35,2	45,8	46,03	47,4	52,6
digər xidmətlər	77,9	78,1	96,2	92,9	87,4	85,3	83,9	69,6	58,6

Mənbə: [2, s.12-13] əsasında müəllif tərəfindən tərtib edilib.

İKT sektorunda müəssisələr tərəfindən əhaliyə göstərilmiş xidmətlərin həcmi 2008-2014-cü illərdə dəyişkən dinamikaya malik olmuş, ardıcıl olaraq azalma və yüksəlmə qeydə alınmışdır. Son iki ildə, yəni 2015 və 2016-cı illərdə xidmətlərin dəyərində enmə müşahidə edilmişdir. Ümumilikdə isə 2008-2016-cı illərdə sektorda əhaliyə göstərilmiş xidmətlərin dəyərində 35,7% artım olmuşdur (Cədvəl 1).

Diaqram №7

2016-cı ildə əhaliyə göstərilmiş xidmətlərin strukturu, %-lə




Mənbə: [2, s.12-13] əsasında müəllif tərəfindən tərtib edilib.

Xidmətlərin dəyərinin formalaşmasında mobil rabitə sektorunun rolu böyükdür. Ən çox dəyər yaradan sahə məhz bu sahədir. Həm mobil rabitə operatorları, həm də özəl və dövlət provayderləri tərəfindən əhaliyə göstərilən internet xidmətlərinin əhatəliliyi də bu sahədə yaradılan dəyərin ildən-ilə artmasına səbəb olmuşdur. 2016-cı ildə İKT sektorunda əhaliyə göstərilmiş xidmətlərin strukturunda mobil telefon rabitəsi böyük paya malik olmuşdur (794 210 min manat). Ümumiyyətlə, 2005-ci ildən başlayaraq davamlı olaraq mobil rabitənin xidmətlərdəki payı 84% üzərində və bəzi illərdə isə ondan yüksək olmuşdur. Xidmətlərin tərkibində növbəti yerləri internet (52 625 min manat), poçt (24 119 min manat), radiorabitə, teleradio yayımı və peyk rabitəsi (13270 min manat) xidmətləri tutmuşdur (Diaqram 7).

Diaqram №8

Azərbaycanda ixrac və idxal olunmuş İKT məhsullarının dinamikası



Mənbə: [1, s.145-158] əsasında müəllif tərəfindən tərtib edilib.

Diaqram 8-in məlumatlarından göründüyü kimi, 2016-cı ildə respublikada ixrac olunmuş İKT məhsullarının ümumi dəyəri 3037,9 min ABŞ dolları olmuşdur ki, bunun 35,7%-i kompüter və periferiya avadanlıqlarının (1083,4 min ABŞ dolları), 54,5%-i telekommunikasiya avadanlıqlarının (1655,6 min ABŞ dolları), 5,2%-i elektron avadanlıqların (158,7 min ABŞ dolları), 4,6%-i isə digər İKT avadanlıqlarının (140,2 min ABŞ dolları) payına düşür. Bu

göstərici 2009-cu ildəki göstəricidən (1936,3 min ABŞ dolları) 1,6 dəfə çoxdur. Müqayisə edilən dövrdə ixrac sahəsində ən böyük göstərici 2013-cü ildə qeydə alınmışdır (9098,9 min ABŞ dolları). İxrac olunmuş İKT məhsullarının ölkədən ixrac edilmiş bütün növ məhsulların dəyərində xüsusi çəkisi 2010-cu ildə 0,01% olduğu halda bu göstərici 2015-ci ildə 0,02% təşkil etmişdir [5].

2016-cı ildə ölkəyə ümumi dəyəri 232,5 milyon ABŞ dolları olan 89 mal qrupu üzrə İKT məhsulları idxal edilmişdir. Bunlardan 18 mal qrupu üzrə 26,7%-i kompüter və periferiya avadanlıqlarının (62,2 mln. ABŞ dolları), 10 mal qrupu üzrə 43,2%-i telekommunikasiya avadanlıqlarının (100,6 mln. ABŞ dolları), 32 mal qrupu üzrə 20,2%-i elektron avadanlıqların (46,9 mln. ABŞ dolları), 29 mal qrupu üzrə olmaqla 9,9%-i isə digər İKT avadanlıqlarının (22,8 mln. ABŞ dolları) payına düşür. Sektorda idxalın həcmində ən yüksək göstərici 2011-ci ildə qeydə alınmış və 336,6 mln. ABŞ dolları təşkil etmişdir. İdxal olunmuş İKT məhsullarının ölkəyə idxal olunmuş bütün növ məhsulların dəyərində xüsusi çəkisi 2016-cı ildə 2,7% təşkil etmişdir. Ümumilikdə isə, bu göstərici 2009-2016-cı illər ərzində 2,7-5,5% arasında dəyişmişdir.

İKT sektorunda məhsulların idxal və ixrac əməliyyatlarına diqqət yetirdikdə, idxal məhsullarına xərclənən vəsaitlərin ixracdan əldə edilən gəlirləri dəfələrlə üstələdiyinin şahidi oluruq. Belə ki, idxal ixracı 2009-cu ildə 173,5 dəfə, 2010-cu ildə 236,4 dəfə, 2011-ci ildə 341,5 dəfə, 2012-ci ildə 441,6 dəfə, 2013-cü ildə 28,5 dəfə, 2014-cü ildə 156,1 dəfə, 2015-ci ildə 107,7, 2016-cı ildə isə 76,5 dəfə üstələmişdir. Xarici ticarət sahəsində böyük mənfi saldo vardır. Müvafiq olaraq göstərilən illər üzrə mənfi saldo 2009-cu ildə -333958,3 min ABŞ dolları; 2010-cu ildə -227136,6 min ABŞ dolları; 2011-ci ildə -335578,1 min ABŞ dolları; 2012-ci ildə -318792,5 min ABŞ dolları; 2013-cü ildə -250649,5 min ABŞ dolları; 2014-cü ildə -271598,9 min ABŞ dolları; 2015-ci ildə -259317,2 min ABŞ dolları; 2016-cı ildə -229488 min ABŞ dolları təşkil etmişdir. Nümunə üçün qeyd etmək olar ki, 2016-cı ildə ticarət sahəsində ixracın payı 1,3% olduğu halda idxalın payı 98,7% olub.

Aparılan təhlillərin nəticəsi göstərir ki, hazırda ölkəmizdə İKT məhsullarının böyük hissəsi idxal edilir. Bu məhsulların bəzilərini respulikada istehsal etmək olar. Məhsulların istehsal edilməsi idxalı əvəz edər və yerli bazarda əhali arasında bu məhsullara olan tələbatın ödənilməsini təmin edə bilər.

Ölkəmizdə yerli İKT məhsulları istehsalı sahəsində müəssisələrin sayında azlıq müşahidə olunur. İKT məhsullarının istehsalında "KÜR" şirkətinin özünəməxsus yer tutur. Şirkət 2004-cü ildə Mingəçevir şəhərində təsis edilib. Yeni sənaye müəssisələrindən olan "KÜR" Elektron Avadanlıqları İstehsalı Məhdud Məsuliyyətli Cəmiyyəti 2005-ci ci ilin sentyabr ayından etibarən informasiya texnologiyaları məhsullarının istehsal və ixracına başlamışdır. Müəssisədə rəqabətə davamlı yüksək texnologiyalı məhsullar istehsal olunur. Müəssisənin istehsal etdiyi məhsullara stolüstü kompüterlər, 2 növ stasionar telefon aparatları, info kiosk, internet terminal, ADSL modemlər, rəqəmsal televiziya qəbul edicisi DVB-T aiddir. Müəssisə ISO 9001:2000 sertifikatını almışdır, Avropa Keyfiyyət Assosiasiyasının sertifikatını, eyni zamanda Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsindən uyğunluq sertifikatı almışdır. Məhsulların ixrac olunduğu ölkələrə Belarus, Moldova, Gürcüstan və s. daxildir.

NƏTİCƏ

Azərbaycanda İKT sahələrinin müasir vəziyyətinin təhlili göstərir ki:

- İKT sektorunda məhsulların idxalı ixracı dəfələrlə üstələyir.
- ixrac olunmuş İKT məhsullarının ölkədən ixrac edilmiş bütün növ məhsulların dəyərində xüsusi çəkisi 2015-ci ildə 0,02% təşkil etmişdir ki, bu da çox kiçik rəqəmdir.
- sektorda istehsalyönümlü müəssisələrin sayı azlıq təşkil edir.

Qeyd edilən problemlərin həlli üçün, eləcə də sektorda rəqabətqabiliyyətliliyin yüksəldilməsini təmin etmək üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı:

➢sektorda sağlam və azad rəqabət prinsiplərinin daha da inkişaf etdirilməsi;

➢respublikamızın ölkə daxilində İKT məhsullarının və xidmətlərinin yerli səviyyədə tam təmini, eləcə də bu məhsul və xidmətlərin beynəlxalq ixracatçısına çevrilməsi üçün ilk növbədə mühüm əhəmiyyət kəsb edən İKT infrastrukturunun müasirləşdirilməsi və inkişaf etdirilməsi;

➢ixrac yönümlü müəssisələrin formalaşmasına, sahibkarlığın, əmtəə bazarının inkişafına dövlət dəstəyinin göstərilməsi;

➢müəssiələrə güzəştli və stimullaşdırıcı vergi və kredit dərəcələri tətbiqi sahəsində islahatların davam etdirilməsi;

➢rəqabətə davamlı yerli İKT məhsullarının, xüsusilə də kompüter texnikası, proqram təminatı və şəbəkə avadanlığının istehsalının artırılması və İKT sənayesinin genişləndirilməsi;

➢İKT sektorunda ixracyönümlü məhsul və xidmət istehsalının genişləndirilməsi məqsədilə investisiya cəlbediciliyinin artırılması, biznes fəaliyyəti və ölkədə xarici investisiyaların yatırımı üçün daha əlverişli mühitin yaradılması sahəsində tədbirlərin həyata keçiril-məsinin intensivləşdirilməsi, xarici vəsaitin istehsal sahibkarlığına yönəldilməsi və s.

ƏDƏBİYYAT SİYAHISI

1.AR Dövlət Statistika Komitəsi. Azərbaycanda İnformasiya Cəmiyyəti. İnformasiya və kommunikasiya texnologiyaları. Statistik Məcmuə. Bakı, 2016. 162 s.

2.AR Dövlət Statistika Komitəsi. Azərbaycanda Telekommunikasiya və Poçt. Statistik Məcmuə. Bakı, 2016. 160 s.

3.OECD Digital Economy Outlook 2017. 158 p.

4.http://www.stat.gov.az

5.http://unctadstat.unctad.org/

6.https://data.worldbank.org/

7.http://www.oecd.org

8.http://unstats.un.org

Фаталиева Г. А.

Современное состояние областей информационных и коммуникационных технологий в мире и в Азербайджане

Резюме

Цель исследования - исследовать текущее состояние ИКТ областей в мире и в Азербайджане, анализировать и оценивать ключевых показателей в этой области.

Метод – сравнительный и статистический анализ, системный подход.

Результаты исследования - На основе анализа была изучена современное состояние в области ИКТ в Азербайджане, были исследованы существующие проблемы, а также показаны пути их решения.

Ключевые слова - *сектор ИКТ, экономическое развитие, конкурентоспособность, импорт, экспорт, продукты и услуги, производство.*

Fataliyeva G. A.

The current state of information and communication technologies fields in the world and in Azerbaijan

Abstract

Purpose of the study - to study the current state of ICT fields in the world and in Azerbaijan, to analyze and evaluate the key indicators in this area.

Method – comparative and statistical analysis, systematic approach.

The results of the study - Based on the analysis, has been studied the current state of ICT in Azerbaijan, have been investigated the existing problems, and have been shown the ways of their solution.

Key words - *ICT sector, economic development, competitiveness, import, export, products and services, production.*

Daxil olub: 05. 11.2017

Rəy verib: AMEA İqtisadiyyat Institutunun *"Xidmət sahələrinin inkişafı problemləri"* şöbəsinin əməkdaşı i.f.d *Abdullayev K. N.*